

# «Mülki müdafiə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Mülki müdafiə haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti bir ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının «Mülki müdafiə haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- «Mülki müdafiə haqqında» Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- «Mülki müdafiə haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin birinci hissəsində, 14-cü maddəsinin ikinci hissəsində, 16-cı maddəsinin ikinci hissəsində, 17-ci maddəsinin birinci hissəsində, 18-ci maddəsinin birinci hissəsində və 20-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları»nın və «Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;
- həmin Qanunun 18-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş fövqəladə hadisələrin və onların nəticələrinin aradan qaldırılması üçün maddi və maliyyə vəsaitləri ehtiyatlarının yaradılması və onlardan istifadə olunması, habelə istifadə olunmuş ehtiyatların yerinin doldurulması qaydası barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- «Mülki müdafiə haqqında» Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

2. Müəyyən edilsin ki, «Mülki müdafiə haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin altıncı hissəsində, 7-ci maddəsinin ikinci hissəsində, 10-cu maddəsinin birinci hissəsində, ~~12-ci maddəsinin beşinci hissəsində,~~ 14-cü maddəsinin birinci hissəsində~~, 17-ci maddəsinin ikinci hissəsində~~ və 19-cu maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

*həmin Qanunun 12-ci maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.*

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 18 aprel 1998-ci il***

***№ 700***